# OBRAZI TANIMAQ İSTƏSƏN

***"Tiçprint" nəşriyyatında Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, dənizçi-şair Səxavət Ənvəroğlunun "Gecikmiş məhəbbət" adlı növbəti kitabı işıq üzü görüb. Qubada fəaliyyət göstərən A.A.Bakıxanov adına "Gülüstan" elmi-ədəbi məclisinin və Xaçmazda fəaliyyət göstərən "Ulduzlar" ədəbi məclisinin üzvü olan S.Ənvəroğlunun şeir və yazıları vaxtaşırı dövri mətbuatda dərc edilir.***

***Biz, bu günə qədər S.Ənvəroğlunu şair kimi tanımışıq. Belə ki, indiyə qədər onun "Ürək məndən inciyibdir" (2006),*** *"Sən olacaqsan" (2014), "Dünyanın işindən baş açmaq olmur" (2017), "Sətir-sətir oxu məni" (2018), "Gedirəm..." (2020), "Məni bağışla..." (2022) və "Xatirələr qocalmır" (2024) adlı şeir kitabları işıq üzü görüb. Amma bu kitaba ilk dəfədir ki, müəllifin hekayələri daxil edilib.*

*Kitabın redaktoru Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvi, Prezident təqaüdçüsü, "Qızıl qələm" mükafatı laureatı Mehrəli Qulu, rəyçisi isə Bakı Dövlət Universitetinin dosenti, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü Anar Məmmədovdur. İnanırıq ki, şairin digər kitabları kimi "Gecikmiş məhəbbət" kitabı da qədirbilən oxucular tərəfindən rəğbətlə qarşılanacaq. İstedadlı şair Səxavət Ənvəroğlu (Seyidməmmədov) bölgəmizdə öz dəst-xətti ilə tanınan yazarlarımızdandır. O, "Ürək məndən inciyibdir" (2006), "Sən olacaqsan" (2014), "Dünyanın işindən baş açmaq olmur" (2017), "Sətir-sətir oxu məni" ("2018), "Gedirəm" (2020), "Məni bağışla" (2022), "Xatirələr qocalmır" (2024) şeir kitablarının müəllifidir.*

Şairin məzmun və janr baxımından rəngarəng olan yaradıcılığının ana xəttini vətənpərvərlik mövzusu təşkil edir. İnsan Vətənə məhəbbət hissini Vətəndən uzaqlarda olduqda daha dərindən duyur və hiss edir. Məhz bunun nəticəsidir ki, dənizçi şair vətən haqqında ən təsirli şeirlərini gəmilərdə işlədiyi zaman əcnəbi ölkələrə (İngiltərə, Hollandiya, İtaliya, Hindistan, Misir və s.) səfərləri zaman yazmışdır. Şairin bütün şeirlərində Vətənə sevgisi tərənnüm olunur. Onun "Azərbaycan - qol,qanadım" şeirində oxuyuruq:

Düz ilqarım, əhdim, andım,  
Öz-özümü hey qınadım.  
Azərbaycan - qol, qanadım,  
Ondan qeyri nədən yazım?  
Süveyş (Misir, Qırmızı dəniz).

Səxavət Ənvəroğlu təbiətin əsrarəngiz gözəlliklərini poeziya dili ilə ustalıqla təsvir edir. Onun təbiət mövzusunda yazdığı "Sizdədir dağlar", "Deyir yaz gəlib", "Yasəmən" və digər şeirləri dediyimizə bariz nümunədir.

Şairin yaradıcılığında sevgi-məhəbbət mövzusu da mühüm yer tutur. Onun "Yenə də ayrılıq", "Üzür məni", "Mən sevən kimi", "Səndən savayı", "İlk məhəbbət" və digər şeirlərində təmiz, saf, səmimi məhəbbət tərənnüm olunmaqla yanaşı hicran, uğursuz sevgi, sonrakı peşimançılıq hissləri də poetik dillə tərənnüm olunur.

Şairin ictimai-satirik mövzuda "Gözləmir baba!", "Yoxdur", "Pulla alırlar" və s. şeirləri, uşaqlar üçün yazdığı "Azərbaycan bayrağı", çoxlu sayda şeir-tapmacalar və digər şeirləri də maraqlıdır.

Mən, şair dostum Səxavət Ənvəroğlunun nəsrlə məşğul olduğunu, hekayələr də yazdığını bilmirdim. Bir gün o, Xaçmazdakı "Ulduzlar" ədəbi məclisinin tədbirindən çıxarkən mənə öz hekayələrini təqdim etdi və oxuyub, fikirlərimi bildirməyimi xahiş etdi.

Evə gəldikdən sonra bir həftə ərzində Səxavətin hekayələrini oxuyub bəzi orfoqrafik düzəlişlər etdim, eyni zamanda özüm üçün hekayələrin məzmununa aid müəyyən qeydlər apardım.

Əvvəla, onu qeyd edim ki, hekayələr təhkiyə üsulu ilə yazılıb. Yəni hekayədə baş verən əhvalatlar bir nəfərin - müəllifin özü tərəfindən nəql edilir.

***"Tənhalıq şahiddir"***

"Tənhalıq şahiddir" hekayəsi "Məzarında bitəcəyəm" adlı bədii müqəddimə ilə başlayır. Burada ilk sevgisinə qovuşmamış aşiq, illər ötdükdən sonra sevgilisinin məzarını ziyarət edir. Qızın şəkli həkk olunmuş mərmər baş daşı önündə pıçıltı ilə qəlbindən qopub gələn bu misraları söyləyir:

Yaşamaq uğrunda güc edəcəyəm,  
Sərkərdan ömrümü heç edəcəyəm.  
Çiçəkləri göz yaşımla oxşayıb,  
Bir gün bu dünyadan köç edəcəyəm.

Aşiqin sevgilisinin məzarlıqdakı əksinə baxaraq qəlb ağrısı ilə apardığı birtərəfli, səssiz dialoq hekayənin təsirli səhnələrindəndir. O, ilk sevgisini unutmayacağını, vaxtaşırı gəlib yad edəcəyini söyləyib gözləri yaşlı, qəlbində qəm yükü ilə məzarlığı tərk edir.

Hekayənin gedişatında əsərin qəhrəmanlarından olan şəxsin elə əsərin müəllifi Səxavət olduğu qənaətinə gəlirsən. Belə ki, əsərin qəhrəmanlarından biri - müəllif Səxavət, keçmiş Qafur Məmmədov adına Bakı Dəniz Yolları məktəbini bitirmişdir (indiki Azərbaycan Dövlət Dənizçilik Akademiyası). O, mexanik ixtisasına yiyələnmişdir.

Bir gün qaldığı ailəlilər yataqxanasında otağına daxil olduqda telefon zəng çalır. Müxtəsəri o, Pərvanə adlı qızla tanış olur. Onunla görüşür, hətta evlərində də qonaq olur. Qızın anası, atası ilə də tanış olur. Qız onu sevdiyini bildirir. Səxavət sevsə də, nədənsə qıza "Səni sevirəm" sözünü deməyə tələsmir.

Səxavət bir gün Pərvanəni yad oğlanla görür. Pərvanə bu görüşə belə don geyindirir ki, guya həmin oğlan onun qohumudur. Amma uzaq səfərlərdən qayıdıb hədiyyələrlə Pərvanəgilə gəldikdə həmin oğlanı otaqda qızla söhbət etdiyini görür. Pərvanə bildirir ki, artıq onlar nişanlıdırlar. Səxavət pərt halda çıxıb getmək istədikdə, qız həyət qapısında ona: "Sən də sevdiyinlə xöşbəxt ol, məni toyuna çağırarsan" - deyir. Səxavət ilk sevgi oxu daşa dəydikdən sonra sarsıntılarının təsirindən xəstəxanada yatmalı olur. Tibb institutunun xəstəxanaya təlim keçməyə gələn tələbə qızlarından biri Pərvanənin rəfiqələrindən imiş. O, belə bir adamın xəstəxananın hansı palatasında yatması barədə öz rəfiqəsinə məlumat verir. Pərvanə xəstəxanaya gəlib Səxavətlə görüşür. Onun üçün yemək, meyvə və s. gətirir. Səxavət onu əvvəlcə qəbul etmək istəmir. Sonra onun da taleyinə acıyıb qəbul etməli olur.

Bütün bunlar hekayənin davamı olan "Peşimançılıq" bölməsində cərəyan edir. Pərvanə baş verənlərə görə, özünü günahlandırır, peşimançılıq hissləri keçirir.

Səxavət bir neçə gündən sonra xəstəxananı tərk edir. Amma bu haqda Pərvanəyə məlumat vermir. Ancaq Pərvanə son görüşünü də unuda bilmir. Bu görüşdə Səxavətə dediyi şeiri xatırlayır:

Mən səni hər zaman xoş duyğu kimi,  
Kövrək ürəyimdə daşıyacağam.  
Özümə borc bilib bir saygı kimi,  
Sənin həsrətinlə yaşayacağam.

Səxavət yenə düşüncələrə qapılır: "Bu sözləri deyəndə onun üzü ağacdan düşmək istəyən payız yarpağı kimi idi... Səxavət bu hekayədə öz fikir və düşüncələrini belə yekunlaşdırır: "Mən həyat dəryasında qasırğaya, fırtınaya düşüb istiqamətini dəyişmiş bir gəmiyəm, sevinc əvəzinə kədər də yeyirəm, ətrafa baxanda isə hər şeyə həsəd aparıram. Yaxşı ki, baxışlarına dözməyə çaylar şırıltısını, nəriltisini dənizlərə axıtdığı kimi, bədənimdə irili-xırdalı damarlar, kapilyarlar var, ağrılarımı, acılarımı onların içində bölüşdürüb yüngülləşdirərək ürəyimə verə bilirəm. Əgər saydıqlarım olmasaydı, yəqin ki, ürəyim dözməzdi...".

*"Gecikmiş məhəbbət"*

"Gecikmiş məhəbbət" adlı hekayədə əsərin qəhrəmanlarından biri Pərvanə adlı qızdır. Hekayənin sonlarında Pərvanənin Gülsüm xalaya: "Elçinlə görüşməyə gəldim" - deməsindən, əsərin əsas personajlarından adının "Elçin" olduğunu müəyyən edirik və əsər yenə də bir nəfərin - Elçin adlı oğlanın dilindən söylənilir.

Hekayədə kənd həyatı təsvir olunur. Elçin kənddə yaşayır. O, Pərvanə adlı qızı sevir. Amma sevgisini hələ ona bildirmir. Elçin hələ uşaq olanda atası dünyasını dəyişərkən vəsiyyət etmişdi. Anasının isə qonşudakı Tərsanə adlı qızdan xoşu gəlir. Atasının vəsiyyətini də oğluna bildirir ki, əgər əcəl aman versə, Tərsanəni oğlu üçün alacağını vəd edib. Bunu qız tərəfi də bilir. Amma Elçinin qəlbində Pərvanəyə qarşı məhəbbət hissləri hakim idi. O, öz sevgisini qıza bildirmək üçün fürsət axtarırdı. Nəhayət, bir gün Elçinə hərbi xidmətə getmək barədə çağırış vərəqi gəlir.

O, yola düşməyə bir neçə gün qalmış bulağa gedən Pərvanənin qarşısını kəsir, onu sevdiyini bildirir. Qayıdıb gələnə qədər onu gözləməsini təvəqqe edir. Qız utana-utana və gülümsəyərək: "Sağ-salamat get, qayıt, baxarıq, yazışıb əlaqə saxlayarıq" - deyir. Elçin çox sevinir. Qohumlarından bir qızın vasitəsilə görüş təşkil edir ki, Tərsanəyə sevmədiyini bildirsin. Tərsanə düşünürdü ki, Elçin ona eşq elan edəcək, ancaq əksinə olur. O, Elçini ürəkdən sevdiyi üçün bu xəbərdən çox pis olur.

Elçin 2 il Rusiyanın Novorossiysk şəhərində hərbi xidmət keçir. Vaxtaşırı Pərvanə ilə, anası ilə məktublaşır. Xidmətinin sonlarına yaxın məktublardan bəd xəbərlər gəlir: "Pərvanə ərə getdi, Tərsanə də nişanlanıb". Vəssalam. Elçin pərt olur. Hərbi xidmətdən sonra Azərbaycana nə üçün qayıtsın? Odur ki, Novorossiyskdə qalıb işləyir. 1 il işlədikdən sonra doğma Vətənə getməsinə icazə istəyir. Ona icazə verirlər.

Elçin qatarla Bakıya, ordan taksi ilə rayona - evlərinə gəlir. Taksidən düşüb sükuta dalmış evlərinə, həyət qapısına yaxınlaşır... həyət-bacada sakitliyi görüb həyəcanlanır, qəhərlənir... Düşünür: "görəsən anam sağdırmı? Atamın da vəsiyyətinə əməl etmədim"... (Hekayənin bu yerində mən də doluxsundum, gözlərim yaşardı. Ukraynada iki illik hərbi xidmətdən qayıdıb kənddə, evimizin həyət qapısında anamın necə sevincələ, gözləri yaşarmış halda qarşılaması səhnəsi xatirəmdə canlandı, gözlərimin önünə gəldi... M.Q).

Çox şükürlər ki, anası və qardaşları gözlənilmədən arxa tərəfdən gəlib Elçini qucaqlayırlar.

Elçinə bir aylıq məzuniyyət vermişdilər. Eşidən-bilən qonum-qonşu onlara gəlib-gedirlər.

Məzuniyyətinin 20-ci günü Pərvanə də Gülsüm xaladan icazə alaraq Elçinlə görüşməyə gəlir. Elçin onu yola salarkən o, Elçinə öz acı taleyindən danışır. Ona da məsləhət görür ki, birdəfəlik qayıdıb Vətənə gəlsin, ailə həyatı qursun, anası da təkdir, qocalıb, ona da kömək lazımdır.

Elçin Novorossiyskə qayıdıb, daha 6 ay işləyir. Orda olduqda eşidir ki, Pərvanə yenidən ərə gedib.

Elçin 5-6 aydan sonra qayıdıb Vətənə gəlir, təyinatını Bakıdakı zavodların birinə alır və işlə təmin edilir. Anasının məsləhəti ilə o, ailə həyatı qurur. Ayda 1-2 dəfə iki uşağını da götürüb ailəsi ilə kəndə gəlir, anası və qardaşları ilə görüşür, bir qədər istirahət etdikdən sonra yenidən şəhərə qayıdır...

Hekayənin sonunda Elçin deyir: "Budur mənim, gecikmiş məhəbbətim"in analı dünyası...

***(Davamı var)***

***Mehrəli QULU,***  
***AYB və AJB-nin üzvü,***  
***Prezident təqaüdçüsü,***  
***"Qızıl qələm" media mükafatı laureatı.***